"Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının 1.23-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti

**QƏRARA ALIR:**

1. **"Ali təhsil pilləsinin bakalavr və magistr səviyyələrində təhsil haqqında dövlət sənədlərinin nümunələri və onların verilməsi Qaydası"** təsdiq edilsin (əlavə olunur).

2. **"Orta ixtisas təhsili pilləsində təhsil haqqında dövlət sənədlərinin nümunələri və onların verilməsi Qaydası"** təsdiq edilsin (əlavə olunur).

3. **"İlk peşə-ixtisas təhsili pilləsində təhsil haqqında dövlət sənədlərinin nümunələri və onların verilməsi Qaydası"** təsdiq edilsin (əlavə olunur).

4. **"Ümumi təhsil pilləsində təhsil haqqında dövlət sənədlərinin nümunələri və onların verilməsi Qaydası"** təsdiq edilsin (əlavə olunur).

5. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

***A.Rasi-zadə***

***Azərbaycan Respublikasının Baş naziri***

***Bakı şəhəri, 29 aprel 2010-cu il***

***№ 82***